nunun lider dövlətinə çevrilmiş Azərbaycan haqqında da söhbət açılıb.

"Kaonaga club"ın prezidenti Yoşinobu Kanayama yapon biznesi üçün maraqlı olan ölkələr - Azərbaycan, Birləşmiş Ərəb Əmirlikləri, İslandiya, Sudan və Filippin haqqında məlumat verib. Tanınmış iqtisadçı-ekspert, "Cross Border Club"ın prezidenti Kazuyasu İşida son üç ildə Azərbaycana 12 dəfə səfər etdiyini və özü ilə birlikdə təxminən 350 yapon iş adamını gətirdiyini bildirib. Qeyd edilib ki, artıq bir neçə sahədə Azərbaycanla uğurlu və davamlı biznes əlaqələri qurulmaqdadır. Azərbaycanın biznes həyatının perspektivləri çox parlaqdır. Dünyanı bürüyən iqtisadi böhran dövründə yapon kiçik və orta biznesinin inkişafında məhz bu ölkələrin, xüsusilə Azərbaycanın mühüm rol oynaya biləcəyi qeyd edilib.

Yaponiyanın Hokkaydo Universitetinin doktorantı, Hokkaydo Universiteti Xarici Tələbələr Assosiasiyasının fəxri prezidenti Əliboy Məmmədovun fikrincə, son illər Yaponiya və Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafı, qarşılıqlı səfərlər, kadr mübadiləsinin artması, mədəni əlaqələrin sürətli inkişafı, eyni zamanda, biznes sahəsində gözəçarpan işlərin görülməsi, Azərbaycana Yaponiyanın kiçik və orta sahibkarlarının böyük maraq göstərməsi Yaponiya-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının yaradılmasına təkan verib. Yapon iş adamları, elm xadimləri iki ölkə əlaqələrinin inkişafına dəstək məqsədilə Azərbaycan diaspor təşkilatının yaradılmasının vacibliyini vurğulayıb.

Yaponiyada ötən il yaradılmış diaspor təşkilatının əsas məqsədi Azərbaycanı tanıtmaq, Azərbaycan həqiqətlərini yaymaq, tariximizi, mədəniyyətimizi təbliğ etməkdir. Yeni təşkilatın yaradılmasında dəfələrlə Azərbaycanda səfərdə olmuş yapon iş adamları - Kazuyasu İşida, Yoşinobu Kanayama, Hirokazu Taniguçi Yoşimitsu İnamoto, Şiniçi İvaki, Rie Fujivara, Marie Kanayama, Hirotsugu Morişima və digərləri yaxından iştirak ediblər.

Son üç-dörd ildə 400-ə yaxın yapon iş adamının Azərbaycana səfərini təşkil etmiş sahibkar, eyni zamanda "World Investors TV" internet televiziya kanalının prodüseri Kazuyasu İşida, Yaponiyada Azərbaycan diaspor təşkilatının yaradılmasını yüksək qiymətləndirərək, bu təşkilatın Yaponiyada Azərbaycanın tanıdılması istiqamətində əvəzsiz xidmətlər göstərəcəyinə inamını ifadə edib. İki xalqın mədəniyyətində, adət-ənənəsində oxşar cəhətlər olduğunu qeyd edən Kazuyasu İşida məhz bu amillərin Azərbaycana yaponlar arasında sevgi və hörmət qazandırdığını deyib.

Təşkilatın əhəmiyyətindən bəhs edən iş adamı Yoşinobu Kanayama isə bildirib ki, bir çox ölkələrdə biznes və investisiya mühitini araşdırarkən yalnız Azərbaycanda özlərini rahat hiss ediblər. Azərbaycanlıların qonaqpərvərliyi, xaricilərə isti münasibəti onları cəlb edib və ölkəmizlə biznes, eləcə də mədəni əlaqələr qurmağa qərar veriblər.

Günəş və külək enerjisinə yatırımları ilə tanınan mütəxəssis Hirokazu Taniguçi yeni diaspor təşkilatının xalqlarımızı daha da yaxınlaşdıracağına, mədəni əlaqələrin inkişafı vasitəsilə, siyasi və iqtisadi əməkdaşlığın gücləndirilməsinə böyük töhfələr verəcəyinə əminliyini ifadə edib.

Diasporun təşkilat rəhbəri Əliboy Məmmədov Yaponiya-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının yaponiyalı üzvlərinin sayını iki il ərzində 1000 nəfərə çatdırmağı və müntəzəm olaraq Azərbaycana dair elmi, maarifləndirici tədbirlərin keçirilməsini planlaşdırır.

**Ədəbiyyat.- 2018.- 14 aprel.- S. 23.**